*Aytən RÜSTƏMLİ*

# RUSİYANIN AZƏRBAYCANDA XƏBƏR PORTALLARINA TƏSİR İSTİQAMƏTLƏRİ

**Ключевые слова:** Россия, Азербайджан, война, информационная война, медиа, информационные отношения
**Key words:** Russia, Azerbaijan, war, information war, media, information relations

## РЕЗЮМЕ

В данной статье говорится об информационных отношениях Азербайджана с соседними странами, особенно с Россией. Также указываются основной информационный обмен между двумя страна и влияние России на местные СМИ. Основную часть статьи составляют формы освещения общественно-политической жизни Азербайджана в российских СМИ.

## SUMMARY

This article deals with the information relations of Azerbaijan with neighboring countries, especially with Russia. The article also reflects the main information exchange between two countries, main affect directions of Russia to

Azerbaijani Mass media. The main context of article consists of the forms of elucidation of public-political events happened in Azerbaijan in Russian media.

İnformasiya müharibəsi insanların şüurları uğrunda aparılan bir müharibədir, burada silah yox, qələm söz sahibidir. Bu müharibəni aparan insanlar bilirlər ki, düzgün qurulmuş və düzgün aparılan

informasiya müharibəsi vasitəsilə hərbi qələbəni məğlubiyyətə və ya əksinə, hərbi məğlubiyyəti qələbəyə çevirmək olar. İnformasiya texnologiyalarının inkişafı bu müharibənin aparılma üsullarına və miqyasına bilavasitə təsir edir. Əfsuslar olsun ki, Azərbaycan bu müharibənin düz ortasındadır. Bu məqalədə Rusiya ilə qarşılıqlı informasiya əlaqələrindən bəhs olunacaq.

Azərbaycan və Rusiya unikal tarixə, mədəniyyətə, iqtisadi və siyasi xüsusiyyətlərə malik dövlətlərdir. Bununla belə, Azərbaycan və Rusiya xalqlarının taleyi təqribən iki yüz il ərzində bir-biri ilə əlaqəli olmuş və tarixi gerçəkliklər onlar arasında ortaq dəyərlərin formalaşması ilə nəticələnmişdir. Müasir dövrdə Azərbaycan–Rusiya münasibətləri hər iki dövlətin birgə səyləri sayəsində inkişaf etdirilərək mühüm mərhələyə qədəm qoymuşdur. Bu yaxınlaşmaya təkcə ikitərəfli əlaqələrin tarixi köklərə bağlılığı prizmasından deyil, həm də qlobal və regional səviyyədə cərəyan edən geosiyasi proseslər müstəvisindən yanaşılanda Bakı və Moskvanın indiki strateji əməkdaşlığının ilk növbədə zərurət və dövrün yeni çağırışlarına, təhdidlərinə birgə cavab olduğu aydın görünməkdədir. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprel ayının 4-də qurulmuşdur. 1992-ci ilin sentyabrında isə Rusiyanın Bakıdakı səfirliyi rəsmən fəaliyyətə başladı. Rusiya və

Azərbaycan arasında həm diplomatik, həm parlamentlərarası, həm də mədəni əlaqələr hər zaman olmuşdur. Hər iki ölkənin media və mətbuatında iki ölkənin qarşılıqlı əlaqələrinə hər zaman geniş yer verilir.

Respublikada rus dilində 50-dən artıq məcmuə nəşr olunur və 12 informasiya agentliyi xəbər yayır.

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında 06 fevral 2004-cü ildə informasiya sahəsində agentliklər arasında əməkdaşlıq əlaqələrini tənzimləyən Saziş imzalanmışdır. 2011-ci ilin sentyabr ayında "AZD Co LTD" media şirkəti ilə «Российская газета» arasında imzalanmış Saziş əsasında qəzetdə

mütəmadi şəkildə Azərbaycan haqqında məlumatların yayımlanması üçün xüsusi zolaq ayrılmışdır. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Rusiyanın Beynəlxalq İnformasiya Agentliyi "РИА Новости" və Moskva Dövlət Linqvistik Universitetində Azərbaycanın gənc jurnalistləri üçün təkmilləşmə kursları keçirilir. Rusiyada baş verən hadisələri mütəmadi işıqlandıran AzTV, İctimai TV, Lider, AzərTac, APA, Salamnews və Vesti.az kimi Azərbaycanın aparıcı çap vasitələrinin və televiziya kanallarının xüsusi müxbirləri RF XİN-də akkreditə olunublar.

2010-cu ilin oktyabrında Rusiyanın "Vestnik Kavkaza" İnformasiya-Analitik Agentliyi ilə Trend BİA informasiya sahəsində əməkdaşlıq haqqında saziş imzalayıblar. Sənədi Bakıda Trend-in baş direktoru İlqar Hüseynov və "Vestnik Kavkaza" Agentliyinin baş redakroru Aleksey Vlasov imzalayıblar. Sənədə əsasən, tərəflər müntəzəm olaraq operativ informasiyaları, analitik materialları, eləcə də Rusiya, Azərbaycan və ümumilikdə, bütün regionun siyasi, iqtisadi, sosial və mədəni-humanitar həyatı haqqında fotoşəkillərin mübadiləsini dəstəkləyirlər. Tərəflər, həmçinin, dövlət başçılarının və rəsmi nümayəndə heyətlərinin səfərlərinin, eləcə də iki ölkə ərazisində keçirilən digər dövlətlərarası aksiya və tədbirlərin informasiya dəstəyinin təşkili və təminatında sıx əməkdaşlıq edirlər.

"Bu sazişin imzalanması Rusiya ilə Azərbaycan arasında ən müxtəlif sahələrdə, o cümlədən, iki ölkənin jurnalist cəmiyyətləri arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafı və informasiya mübadiləsi sahəsində reallaşdırılan qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinin yaxşı əlamətidir", - Vlasov imzalanma mərasimində bildirib. - "Təkcə Azərbaycanda və Rusiyada deyil, həm də bütün dünyada ad qazanmış nüfuzlu və hörmətli Trend Agentliyinin "Vestnik Kavkaza" Agentliyinin tərəfdaşı kimi çıxış etməsi mənə çox xoşdur". "Ümid etmək olar ki, ən yaxın gələcəkdə bu gün imzalanan saziş konkret birgə layihələrdə reallaşdırılacaq", - Vlasov bildirib.

"Vestnik Kavkaza" Agentliyinin baş redaktoru və Rusiya

Dövlət Humanitar Universiteti yanında Qafqazşünaslıq Mərkəzinin rəhbəri İsmayıl Atakişiyev Trend-in ofisində jurnalistlərin suallarına cavab veriblər. "Vestnik Kavkaza" regionun yeniliklərindən və ənənələrindən danışan informasiya-analitik agentliyidir. Agentlik regiondakı hadisələr haqqında operativ məlumat təqdim etməyi, analitiklərin şərhlərini təqdim etməyi, çoxsaylı Qafqaz xalqlarının mədəniyyətləri barədə danışmağı, onların məşhur nümayəndələri - siyasətçilər, iqtisadçılar, yazıçılar, incəsənət xadimləri, idmançılarla tanış etməyi qarşısına vəzifə qoyub.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Saziş 2002-ci il yanvarın 25-də Moskva şəhərində imzalanmışdır. Saziş 10 il müddətinə bağlanmışdır. Moskva şəhərində 25 yanvar 2002-ci ildə iki nüsxədə olmaqla, Azərbaycan və rus dillərində imzalanmışdır hər iki mətn eyni qüvvəyə malikdir.

Bugün Azərbaycana qarşı 3 cəbhədən aktiv informasiya müharibəsi gedir. Bu 3 cəbhə Ermənistan, İran və Rusiya cəbhələridir. Sovet imperiyası dağıldıqdan sonra Rusiyanın mətbuat orqanlarında Azərbaycana qarşı informasiya müharibəsi aparılır. Bu müharibənin aparılmasında məqsəd dövlətimizi zəiflətmək, ölkəmizin

həyata keçirdiyi böyük beynəlxalq layihələrin və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinin qarşısını almaqdır.

Rusiyada Azərbaycan əleyhinə təbliğat aparan və dövlət səviyyəsində qəbul edilən tarixi reallığı təhrif edən bir çox erməni fəalları var. İstər Rusiyada yaşayan ermənilər, istər azərbaycanlılar və istərsə də internet vasitəsilə ölkəmizin sakinlərinə milli-tarixi dəyərlərimizlə bağlı təhrif olunmuş informasiyalar çatdırmaqla həm milli münaqişənin dərinləşməsinə rəvac verir, həm də müəyyən məqamlarda uğurlu" beyin yuma" kompaniyası həyata keçirilir.

2016-cı ildə Bakıda mətbuat konfransı keçirən Türkiyənin "İhlas" xəbər agentliyinin Moskva bürosunun keçmiş əməkdaşı

Fuad Abbasov bildirmişdi ki, o Azərbaycanın mövqeyini müdafiə etməməklə bağlı dəfələrlə Rusiya televiziyalarından xəbərdarlıq alıb. "Aprel ayının ilk günlərində Azərbaycan və Ermənistan arasında müharibə başlayanda məni televiziyalara çağırmağa başladılar. Lakin xəbərdarlıq etdilər ki, çıxışımda Azərbaycanın mövqeyini müdafiə etməyim." F.Abbasov hətta çıxışında bildirmişdi ki, Azərbaycanın mövqeyini müdafiə edən Rusiya politoloqları da efirə buraxılmırlar.

Sosial şəbəkələr informasiya müharibəsi aparmağa, tarixi və hazırki prosesləri kobud sürətdə təhrif etməyə fürsət yaradan bir vasitədir. Xüsusən, Rusiyada 2-ci, dünyada isə məşhurluğuna görə 20-ci pillədə qərarlaşan "VKontake" sosial şəbəkəsi çox aktivdir. Həm burada, həm də Rusiyanın başlıca xəbər portallarında Azərbaycana qarşı informasiyalar yayımlanır. Rusiyada anti-azərbaycan təbliğatının əsas öndərlərindən biri kimi keçmiş "soydaşımız" prodüser və Rusiya Jurnalistlər İttifaqının üzvü Vadim Arutyunov anti-azərbaycan təbliğatının yeridilməsində əsas şəxslərdən biridir. İlk video süjeti dolmanın erməni mətbəxinə məxsus olmasına həsr edən Arutyunov əslində bu sözün erməni dilində üzüm yarpağı mənasını verən "toli" sözündən yarandığını bildirir. Başqa bir çıxışında İrəvan xanlığının Azərbaycanla bağlılığını inkar edir və özünəməxsus "arqumentlərlə" bu dövləti İranla əlaqələndirməyə çalışır. Ümumilikdə, Səfəvilər

dövlərini və İranı əsrlərlə fasiləsiz idarə edən türk sülalələrinin Azərbaycanla bağlılığını şübhə altına qoyan şərqşünas ixtisaslı Vadim Arutyunov tütək musiqi alətinin qədim erməni mədəniyyətinin sübutu olduğunu bildirir. Bundan başqa, silsilə videoçarxların müxtəlif hissələrində Ermənistanın müstəqilliyini tanımayan Pakistanın tənqidi, ermənilərin Qafqaza köçürlüməsində rol oynayan Aleksand Qriboyedovun tərifi yer alır. Ramil Səfərovdan da yan keçməyən Arutyunov onu müxtəlif təsvir vasitələrindən istifadə etməklə təhqir etməyə çalışır və s. Bütün video süjetlər müəyyən müddətdən sonra youtube-a yerləşdirilməklə geniş kütlələr arasın-

da yayılır. Dezinformasiya dolu bu videolara Azərbaycan taxriçilərinin, gənclərinin kont-arqumnetlə cavab verməsi önəmlidir. Əskər aspektlərdə Azərbaycan tarixinin Arutyunov və onun kimilər tərəfindən təhrif olunmuş formada verilməsi hətta Rusiyada yaşayan azərbaycanlıların milli köklərdən ayrılmasına və informasiya müharibəsində məğlubiyyətimizə səbəb ola bilər.

Azərbaycanda baş verən mühüm hadisələr, Səfirlik tərəfindən görülən tədbirlər barə məlumatlar Rusiyanın aparıcı kütləvi informasiya vasitələri tərəfindən yayımlanır. Ölkəmizin tarixi, ənənələri və mədəniyyəti barədə materiallar hazIrlamaq məqsədi rusiyalı müxbirlər Azərbaycana ezamiyyətə göndərilirlər. 2011-ci ilin oktyabr ayında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin Azərbaycana press-turu təşkil olunmuşdur. Bu press-tur nəticəsinə Rusiya kütləvi informasiya vasitələrində ölkəmiz barədə müsbət məzmunlu məqalələr silsiləsi çap edilmişdir.

## ƏDƏBİYYAT:

**Azərbaycan dilində**

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri(1991-2016)
2. Məmmədli C. Müasir jurnalistika

**Rus dilində:**

3. Ахундова Э. "Теория журналистики и современные проблемы периодической печати". 2012
4. Информационные технологии: фазы обработки информации-источники, поиск, сбор, анализ и представление. Раздел 3. Техноло-
гии поиска новой информации.

**İnternet mənbələr:**


5. Az.wikipedia.org
6. Ru.wikipedia.org
7. http://resmixeber.az/main/5543-fuad-abbasov-rusiya-metbu-at-orqanlari-azerbaycana-qarshi-informasiya-muharibesi-apa-rilir.html
8. http://azpolitika.info/?p=101387
9. http://azpolitika.info/?p=101387


**Elmi rəhbər: dos. V.Əliyev**